# Tarixçi-alimlər İzmirdə keçirilən beynəlxalq simpoziumda iştirak etmişlər

Noyabrın 26-28-də Türkiyənin İzmir şəhərində Atatürk Araşdırma Mərkəzi (ATAM) və Dokuz Eylül Universitetinin Atatürk Prinsipləri və İnqilab Tarixi İnstitutunun birgə təşkilatçılığı ilə *"Türkiyə Respublikasının iqtisadi və sosial tarixi"* mövzusunda beynəlxalq simpozium keçirilmişdir.



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Tarix İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Yaqub Mahmudovun başçılığı ilə institutun əməkdaşları - elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov, tarix üzrə fəlsəfə doktorları İradə Məmmədova, Bəxtiyar Həsənov və Mahir Qəribov beynəlxalq simpoziumda çıxış etmişlər.

Cəbi Bəhramov və İradə Məmmədova simpoziumun ayrı-ayrı bölmələrinə sədrlik etmişlər. Simpoziumun açılış və bağlanış mərasimlərində çıxış edən AMEA-nın müxbir üzvü Yaqub Mahmudov Türkiyə Respublikasının iqtisadi və ictimai inkişafından, Türkiyə Qurtuluş Savaşı zamanı Azərbaycan - Türkiyə iqtisadi əlaqələrindən, müstəqilllik dövründə Azərbaycan və Türkiyə respublikaları arasında iqtisadi əlaqələrin daha da inkişaf etməsindən söz açmış, ulu öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün bütün maneələrin aradan qaldırılmasını tövsiyə etdiyini və hazırda Türkiyə ilə iqtisadi əlaqələrin hərtərəfli inkişaf etdiyini bildirmiş və çıxışını Prezident İlham Əliyevin *"Azərbaycan - Türkiyə əlaqələrinin dünyada bənzəri yoxdur"* sözləri ilə yekunlaşdırmışdır.

Simpozium zamanı Tarix İnstitutunun əməkdaşları Manisaya gedərək, İkinci Dünya müharibəsi dövründə əsir alınaraq Avropanın bir çox ölkələrində yaşayan, sonra isə Türkiyənin Manisa şəhərinə köçərək burada məskunlaşan 94 yaşlı Səttar Bakılını ziyarət etmiş, onun Vətən sevgisi ilə dolu xatirələrini dinləmiş və haqqında İctimai TV-nin (İTV) TRT ilə birlikdə hazırladığı sənədli filmin çəkilişində iştirak etmişlər.

Noyabrın 28-də simpozium iştirakçıları İzmirin tarixi abidələrini ziyarət etmişlər.

***"Azərbaycan"***